# Vətənimizin gənc xilaskarı – Aydın Əhmədli...

**...O, fəsillərin ən gözəli olan Bahar fəslində dünyaya göz açdığından - bu fəsili də çox sevər - heyranı idi. Hər dəfə, yaz, yay tətillərində Bakıdan ana babasının yurduna - Zaqatala rayonunun Qandax kəndində "Yuxarı Məhlə"dəki bağ-bağatlı həyətə gələrdi. Bu həyətdə yaşayan xalalar onu daima əzizləyər, ürəyi istədiyi hər cürə xörəklər bişirərdi. Özü isə gah ağaclara, gah dirriklərə, gah da ki, qızılgüllərə və gül kollarına qulluq edərdi...**

Boş vaxt tapan kimi qonşudakı həm yaşıdları ilə birlikdə Qandax kəndindəki çayları, gölləri və meşələri seyr edərdi. Çünki, o, təbiət vurğunu idi...

Neçə illərdən sonra o, yenə Qandax kəndinə bahar fəslində deyil, payız fəslində qonaq gəldi, amma birdəfəlik... üm rəngli bayrağa bürünmüş tabutda...

Elə bil həmin gün onun uşaqlıq, məktəb illərini keçirdiyi Qandax kəndi sanki sükuta dalmışdı. Bağlarda, həyətlərdə, meşələrdə ağaclardan saralmış yarpaqlar daha tez-tez tökülürdü. Sanki, kənd sakinlərinin axıtdığı göz yaşları ilə birlikdə...

...Məhz, həmin gün - 9 Oktyabr 2020 -ci il tarixində, payız fəslində, ömrünün bahar çağlarında - 18 yaşında şəhid olan Əhmədli Aydın Mustafa oğlunun anası, 2 bacısı, 1 qardaşı, 8 xalası, digər əzizləri, dostları, tanışları və bütöv Qandax kəndi şokda, kədər içində olub... Elə həmin gün, çox gənc olan Vətən fədaisini, cəfakeşini ictimaiyyətin iştirakı ilə, elliklə son mənzilə yola salmışdılar...

### *Aydın məktəb yaşlarından*

***əziyyətə qatlaşıb, enişli-yoxuşlu yollardan hələ yeniyetmə olarkən keçib. Amma, yaşıdlarının yanında biruzə verməyib. Ona ən çətin məqamlarda istəkli xalaları, rəhmətlik dayısı dayaq olublar. Onun ən böyük arzusu, məqsədi bacılarının ali təhsil alması olub. Bu barədə söhbət düşəndə anası deyərdi ki, "...Bala, Aydın axı sən də yaxşı oxuyursan, hazırlaş ali məktəbə, bir ixtisas seç, gələcəkdə lazım olacaq..!" Aydının cavabı belə olardı: "Ana, qurbanın olum, bilirəm sən istəyirsən ki, mən də ali məktəbə daxil olum, sənin fikrinlə şərikəm, amma, əvvəlcə bacılarım ali təhsil alsınlar, onlara daha çox vacibdir təhsil almaları... Mən hər zaman oxuya bilərəm, gec deyil, narahat olma..."***

...Lap gənc ikən şəhidlik zirvəsini fəth edən Aydın Əhmədli barəsində daha ətraflı məlumat toplamaq üçün Zaqatala rayonu Qandax kəndinə getdim, ana yurduna... Artıq onun ən çox sevdiyi bahar gəlmişdi. Onun vaxtilə uşaqlıq, məktəb illərini keçirmiş həyət necə də gözəl görünürdü: zoğal, alça, gilənar, ərik, şaftalı ağacları çiçək açmışdı, həyət-baca yaşıllaşmışdı, həyətdən sanki nərgiz güllərinin ətri gəlirdi... Məni həyət qapısında Aydının xalası Nuriyyə xanım qarşıladı:

***- Soruşdum: "Ay bacı, Vətənimizin can fədaisi Aydın Əhmədlinin anası, digər ailə üzvləri və digər əzizləri bu evdəmi yaşayırlar?"***

...Arvad əvvəlcə duruxdu, sonra isə doluxsundu, nəhayət özünü ələ alaraq, cavab verdi:

***- Qardaş, hələlik bilmirəm hardan gəlmisiniz, nə məqsədlə gəlmisiniz? Deyim ki, şəhid balamızın anası, yəni mənim bacım Bahar və iki qızı ilə birlikdə Bakı şəhərində olurlar. Bacımız orada işləyir, böyük qızı ail həyatı qurub, kiçik qızı isə anasının yanındadır. Ali məktəbi bitirib, iş axtarır. Aydının balaca qardaşı ilə bizim yanımızdadır...***

***- Axı, mən özümü sizə təqdim etdim, dedim ki, jurnalistəm, gəlişimin məramı da xoşdur, igid, mərd gəncimizin həyat hekayəsini qələmə alacağam və onu elimizə, yurdumuza tanıdacağam...***

***- Neyləyək, oğlum, Aydının ölümündən sonra özümüzə gələ bilmirik, elə bil əl-ayağımız tutulub, çaş-baş qalmışıq.***

***O, ayrı uşaq idi... Allah, bu müharibəni törədənlərin torpaqlarımızı işğal edən düşmənlərin, hiyləgər tülkülərin cəzaasını versin... Müharibə etdilər, bizim 18, 19, 20, 21 yaşları bitmiş, cavanları həlak etdilər, qırdılar... Günahsız balaları. Əlavə etdi: "...Aydın uşaqlıqdan əziyyət çəkmişdi, bacımız 4 balasını böyütmək üçün Bakı şəhərində müxtəlif yerlərdə çalışmışdır, qızlarını ali məktəbdə oxutdurmuşdur. Aydın isə məktəbi bitirib, işləməklə anasına yardımçı olmuşdur."***

Nuriyyə xalasının bacısı oğlu barəsində dediklərindən:

***- Aydın, diribaş, ağıllı, dərrakəli, ailəcanlı uşaq idi. İşləməklə ailəsinə maddi, həm də mənəvi dəstək verirdi. Çünki, bacılarının 2-sidə ali təhsil ocaqlarında oxuyurdular. Bacımın böyük qızı Rəqsanə Azərbaycan Texniki Universitetini 2019 -cu ildə bitirib, ailə həyatı qurub. Bu ailənin 2 -ci qızı 1997 -ci il təvəllüdlü Əfsanə Əhmədova isə Azərbaycan Memarlıq və İnşaat Universitetinin Ekologiya fakültəsində təhsil alıb. Aydının balaca qardaşı İlkin, 2004 -cü il təvəllüdlüdür, hal-hazırda Zaqatala rayonu Əliabad qəsəbə 1 saylı tam orta məktəbinin 9 -cu sinfində oxuyur. Bəli, bacım oğlu çox ürəyi açıq, xeyirxah, ağsaqqalın - ağbirçəyinin hörmətini saxlayan, onların qayğısına qalan bir gənc olub. Ailəni dolandırmaqdan ötəri hər cür çətinliyə qatlaşırdı. O, uşaqlıq və məktəb illərində dünyaya göz açdığı kənd dağlıq ərazidə yerləşsə də, bacımın oğlu rayonumuzun, təbiətimizin və Qandax kəndinin vurğunu idi. Aydın kəndə gəlməyəndə biz darıxırdıq, onunla günlərimiz xoş keçirdi... O, bədii və dedektiv kitabları çox oxuyar, futbol oynamağı da xoşlayırdı...***

...Digər xalası Firəngiz xanım söhbətimizə qoşuldu:

***"...Bacım oğlu elə bil hiss etmişdi ki, o, hərbi xidmətə başlayan bir müddətdən sonra İkinci Qarabağ Savaşı başlayacaq və özü də bu müharibənin iştirakçısı olacaq, neçə illərdən bəri göz dağımız olan torpaqlarımızın işğaldan azad olunmasında erməni dığaları ilə vuruşacağıq. Bu döyüşlərdə mərdlik, şücaət, igidlik göstərəcək gənc qəhrəman kimi xatirələrə dönəcəkdir..." deyə Firəngiz xalası əlavə etdi...***

Nuriyyə xanım bacısı oğlu Aydınla hərbi and içmə mərasimindəki görüşdən də danışdı:

***"Aydınla and içmə mərasimi bizə təsəlli görüşü oldu. Həmin görüşə anası, qardaşı, xalası oğlu ilə birgə getmişdik. Əsgər balamıza elə bir dünyalar bağılşanmışdı. Aydın sanki böyümüşdü, xeyli dəyişilmişdi, əsil hərbi görkəmi vardı. Hərbi xidmətindən böyük həvəslə danışırdı. Bacı oğlu tez-tez hərbi təlimlərdə iştirak etdiyini desə də, tezliklə başlanacaq müharibə barədə belə bir kəlmə işlətmədi. Ancaq, üz cizgilərindən narahatlıq, nigarançılıqla yanaşı məsuliyyət hiss olunurdu. Görüş zamanı əvvəlcə bacıları Rəqsanə, Əgsanədən, qardaşı İlkindən bacısının uşaqlarının hal əhvalını soruşdu, digəri xalaları, qohum-əqrəba ilə***



***maraqlanardı... Anası Bahar xanıma xüsusilə irək-dirək verdi. Anasının gözlərindən axan göz yaşlarını silə-silə... "Əziz anam, niyə kövrəlirsən, ağlama, sən fəxarətlə öyünməlisən ki, sevimli oğlun mərdlik, sınaq məktəbindədir, Ana Vətənimizin keşiyini çəkir, sabitliyinizi qoruyur. Ana, dözümlü ol, sağlıq-salamlıq olsun. Həqiqi hərbi xidmətimi başa vurub, tezliklə Sizin yanınıza qayıdacağam, yenə də sizinlə birlikdə olacağam... qüssələnmə, təmkinli ol... axı, sən mərd qadınsan..! Təki, bütün analar sənin kimi dözümlü, iradəli olsunlar..."***

...Aydın Əhmədli 27 sentyabr 2020-ci il tarixində İkinci Qarabağ Savaşı başlayanda 5 -ci ay idi ki, hərbi xidmətdə idi... Yaxınlarının sözlərinə görə, müharibə başlamazdan əvvəl, Aydınla əlaqə saxlaya bilməyiblər, narahat olduqlarına görə xidmət etdiyi hərbi hissənin komandanlığına, Müdafiə Nazirliyinə müraciət ediblər... Sonra isə Aydının sorağı döyüş meydanından gəlib... 18 yaşlı hərbiçinin döyüş yolu müharibənin ilk günündən - Cəbrayıldan başlayıb. Zəngilan, Qubadlı rayonlarının düşmənlərdən azad edilməsi uğrunda gedən döyüşlərdə iştirak etmiş, neçələrlə erməni daşnaklarını gəbərtmiş, sərrast atıcı kimi düşmənin müxtəlif növ silahlarını, texnikasını sıradan çıxartmışdır. O, eyni zamanda dəfələrlə yaralı döyüşçü yoldaşlarını xilas etmişdir. Aydın daha sonra İkinci Vətən Müharibəsinin ən bəlalı qaynar nöqtəsi olan Füzuli bölgəsində döyüşlərə qoşulmuşdu. Düşmənin ən çox canlı qüvvəsi, texnikasının, topladığı istehkamlarının quraşdırdığı cəbhənin bu xəttində ən ağır döyüşlərinin iştirakçısı olmuşdu - Aydın. Vətən xilaskarının son döyüşü də məhz, 6 oktyabr 2020 -ci il tarixində Füzuli istiqamətində olmuşdur. Düşmən mövqelərini darmadağın edən döyüşçülərimiz əks tərəfin güclü müqaviməti ilə rastlaşıblar. Həmin gün biz tərəfdən döyüşlərdə xeyli yaralı və şəhidlərimiz olsa da, düşmən tərəfdən də xeyli itkilər verdilər... Təəssüflər olsun ki, ermənilərin atdıqları minamyot mərmisindən sonra Aydın Əhmədli - döyüşçü yoldaşlarını xilas edərkən, mərmi qəlpəsindən ağır yaralanıb... Xəsarətlər ağır olduğu üçün həyata qaytarması mümkün olmayıb.

### *...Vətən cəfakeşi*

Aydın Əhmədli Şəki rayonunda dünyaya göz açsa da, şirin uşaqlıq, məktəb illərini keçirdiyi anasının doğma yurdu olan Zaqatala rayonunun Qandax kəndində qəbristanlıqda 9 oktyabr 2020 -ci il tarixində izdihamla, al qırmızı əklillərin müşayiəti ilə son mənzilə yola salındı... Aydın son nəfəsində belə demişdi: "Əzizlərimə deyərsiniz ki: "Anamdan, bacılarımdan, qardaşımdan muğayat olsunlar, onlar Sizlərə əmanət, xalalarıma deyərsiz ki, ağlamasınlar, göz yaşlarını tökməsinlər, yerim narahat olar...""

Halal olsun Vətən oğlu. Sən 18 yaşında cəsarətlər cəsarəti oldun... Aydın! Hünərinə min alqış - elimizin fəxri, qüruru...

Ölkə başçısının sərəncamı ilə Aydın Mustafa oğlu Əhmədli ölümündən sonra "Vətən uğrunda" medalı ilə təltif olunub.

**Qeyd: Bildirmək istəyirəm ki, şəhid Aydın Əhmədlinin ailəsi Bakı şəhərində kirayədə yaşayır, yaşamaqları üçün mənzilə ehtiyacları vardır. Digər tərəfdən şəhidin bacısı Əfsanə Əhmədova Azərbaycan Memarlıq və İnşaat Universitetinin Ekologiya fakültəsini bitirsə də iş tapa bilməyib. Yaxşı olardı ki, aidiyyatı təşkilatlar ailənin mənzillə, Azərbaycan Ekologiya və Təbii Sərvətlər Nazirliyi isə şəhid bacısının işlə təmin olunmasına köməklik göstərsələr bu bir xeyirxahlıq missiyası olardı.**

**Elman Maliyev**
**Azərbaycan jurnalistlər Birliyinin üzvü**